Təsdiq edirəm
ADMİU-nun rektoru
_____Professor Ceyran Mahmudova
"_12_" "_sentyabr_____" 2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

T Ə H S İ L P R O Q R A M I

7002015 – Sosiologiya ixtisasının
İdarəetmənin sosiologiyası ixtisaslaşması

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 060210 – Sosiologiya ixtisası (İxtisaslaşma – İdarəetmənin sosiologiyası) üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:
- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:
- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;

- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;
- musiqi sənətini geniş ictimaiyyətə tanıtmaq;
- musiqi sənətini təbliğ etmək və müxtəlif tədbirlərdə, konfrans və seminarlarda, KİV və musiqi salonlarında çıxış edərək, maarifləndirici fəaliyyət göstərmək;
- KİV-də musiqi redaktoru, prodüser, aparıcı və s. kimi fəaliyyət göstərmək;
- müasir rəqəmsal yexnologiyaların müxtəlif musiqi sənətinə təsirini təhlil və çərh etmək, habelətətbiq etmək,
- musiqi publisistikasının müxtəlif janrlarında yazmaq.

Qeyd: *ixtisasın xüsusiyyətindən asılı olaraq ümumi səriştələrə əlavələr edilə bilər.*

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

İdarəetmənin sosiologiyası ixtisaslaşması üzrə:

- İdarəetmə sosiologiyasının nəzəri və tətbiqi komponentlərini bilmək və tətbiq etmək;
- Sosial sistemlərin idarə olunmasında yaranan problemlərin həlli istiqamətində praktikada reallığın təhlilinə sosioloji yanaşmaları tətbiq etmək;
- Sosial sistemlərdə idarəetməni üç səviyyədə (dövlət səviyyəsində, təşkilatda və qrupda) sosioloji baxımdan müqayisəli təhlil etmək;
- Sosial sistemə təsir edən subyekti, idarəetmə obyektini, daxili və xarici mühiti və faktorları müəyyənləşdirə bilmək;
- Qruplarda əməkdaşlıq yolu ilə sinerji yaratmaq, münaqişələrin həlli və idarəetmə proseslərinin tənzimlənməsi bacarıqlarını inkişaf etdirə bilmək;
- Sosial-siyasi problemlərin kompleks şəkildə analiz bacarığı və (əsas səbəblər (root-cause) identifikasiyası ilə strategiyalar təklif edə bilmək.

3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

İxtisaslaşmaların adları	Verilən dərəcə	Əyani forma üzrə təhsil müddəti	Kreditlərin sayı
İdarəetmənin sosiologiyası	**Magistr ali elmi-ixtisas**	**2 il**	**120**

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

Sıra sayı	Fənnin adı	AKTS krediti
1	**Tədqiqat metodları** *Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur.*	6
2	**Akademik yazı və etika** *Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.*	6
3	**Tədqiqat analitikası** *Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq ("Excel", "SPSS", "Stata", "R", "MAXQDA", "Matlab", "Python" və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur.*	6
	Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər	54
4	**Ali məktəb pedaqogikası və psixologiya** Bu fənn ali təhsil müəssisələrində tədris prosesinin nəzəri-metodoloji əsaslarını öyrədir. Fənn pedaqoji fəaliyyətin prinsipləri, təlim metodları və tədris texnologiyalarının tətbiqi imkanlarını nəzərdən keçirir. Təhsilalanlara müasir pedaqoji yanaşmalar əsasında dərs planlaşdırmaq, auditoriya ilə işləmək və qiymətləndirmə aparmaq bacarıqları aşılanır. Bu biliklər gələcəkdə onların elmi-pedaqoji fəaliyyətini səmərəli təşkil etməsinə şərait yaradır.	6
5	**Sosioloji tədqiqat metodologiyası (keyfiyyət metodlar: intervü, fokus qrup)** Bu fənn keyfiyyət tədqiqatının əsas prinsiplərini və nəzəri istiqamətlərini öyrədir. Tələbələr intervü, fokus qrup və müşahidə kimi metodların tətbiq qaydaları ilə tanış olur. Fənn real sosial proseslərin dərin, çoxsəviyyəli təhlili üçün analitik düşünmə bacarıqlarını inkişaf etdirir. İntervü texnikaları müxtəlif respondent qrupları ilə işləməyi və düzgün sual quruluşunu öyrədir. Fokus qrup metodu sosial qarşılıqlı təsirlərin və qrup dinamikasının öyrənilməsinə imkan yaradır. Fənn tədqiqatçıların data	6

	emalı, interpretasiya və nəticələrin təqdimatı ilə bağlı bacarıqlarını formalaşdırır. Etik prinsiplərin keyfiyyət tədqiqatındakı rolu xüsusi vurğulanır.	
6	**İdarəetmənin nəzəri əsasları və sosial strukturlar** Bu fənn idarəetmə elminin formalaşmasına təsir edən klassik və müasir nəzəriyyələri təqdim edir. Sosial strukturların idarəetmə proseslərinə təsiri nəzəri və praktik aspektdə araşdırılır. Təşkilatlarda güc, status, rol və sosial iyerarxiyanın formalaşma mexanizmləri izah olunur. Fənn idarəetmədə qərar qəbuletmə prosesinin sosial əsaslarını təhlil edir. Tələbələr müxtəlif idarəetmə modellərini sosial kontekstlə əlaqədə müqayisə edirlər. Nəzəri biliklər real təşkilat praktikaları ilə əlaqələndirilir. Fənn idarəçi və işçi münasibətlərinin sosial əsaslarını başa düşməyi hədəfləyir.	6
7	**İdarəetmədə sosial siyasət və mədəniyyət faktorları** Fənn sosial siyasətin idarəetmədə oynadığı rolu və təşkilatlar üçün əhəmiyyətini öyrədir. Mədəniyyətin idarəetmə prosesinə və təşkilat davranışına təsiri araşdırılır. Sosial bərabərlik, sosial müdafiə və inklüzivlik kimi anlayışların idarəetmə ilə əlaqəsi izah olunur. Təşkilat daxilində mədəni müxtəliflik və çoxmədəniyyətlilik məsələləri təhlil edilir. Fənn şirkətlərin sosial məsuliyyət konsepsiyalarını nəzəri və praktik baxımdan izah edir. Tələbələr sosial siyasət alətlərinin idarəetmə strategiyalarına inteqrasiya yollarını öyrənirlər. Fənnin sonunda idarəetmədə sosial və mədəni faktorların balanslı tətbiqi üzrə bacarıqlar formalaşır.	6
8	**Elmi etika və məlumat təhlükəsizliyi** Bu fənn elmi fəaliyyətin etik prinsiplərini və tədqiqatçının məsuliyyətini izah edir. Plagiat, təhrif, saxtalaşdırma kimi etik pozuntuların qarşısının alınması yolları öyrədilir. Məlumat təhlükəsizliyinin əsas prinsipləri və şəxsi məlumatların qorunması qaydaları təhlil olunur. Tədqiqatda məxfilik, razılıq alma və etik komitələr barədə praktiki biliklər verilir. Fənn rəqəmsal mühitdə məlumatların idarə edilməsinin risklərini araşdırır. Tələbələr elmi işin şəffaflığı və məsuliyyətli tədqiqat aparmanın vacibliyini öyrənir. Etika və təhlükəsizliyin uzunmüddətli elmi inkişaf üçün əhəmiyyəti vurğulanır.	6
9	**Kəmiyyət metodlar (statistika və survey tədqiqatları)** Fənn statistikanın əsas anlayışlarını və onların sosioloji tədqiqatda tətbiqini öyrədir. Tələbələr anket (survey) tədqiqatlarının dizaynı və həyata keçirilməsi ilə bağlı bacarıqlar əldə edir. Məlumatların kodlaşdırılması, analiz edilməsi və interpretasiyası praktiki olaraq öyrədilir. Fənn ehtimal nəzəriyyəsi və nümunə götürmə metodlarını izah edir. Statistik proqram təminatı vasitəsilə data analizi aparmaq üçün biliklər verilir. Tədqiqat nəticələrinin etibarlılığı və legitimliyi ilə bağlı nəzəri çərçivələr araşdırılır. Kəmiyyət nəticələrin sosial reallığın izahında rolu geniş şəkildə təhlil olunur.	6

10	**Sosial və mədəni sistemlərin analizi** Bu fən sosial və mədəni sistemlərin quruluşunu və qarşılıqlı əlaqələrini izah edir. Sosial institutlar, normlar və dəyərlərin cəmiyyətdə oynadığı rol araşdırılır. Mədəni müxtəliflik və sosial dəyişmə prosesləri təhlil olunur. Fənn struktur-funksional və interpretativ yanaşmalarla sistemlərin təhlilini təmin edir. Sosial qruplar, identiklik və mədəni şəbəkələrin işləmə mexanizmləri izah olunur. Tələbələr sistem yanaşmasının cəmiyyət analizində əhəmiyyətini dərk edirlər. Fən sosial problemlərin sistemli şəkildə izahına və həllinə yönəlmiş bacarıqlar formalaşdırır.	6
11	**Tədqiqat seminarı (empirik layihə hazırlığı)** Fənn tələbələrin empirik tədqiqat layihəsi hazırlamaq bacarığını inkişaf etdirir. Tədqiqat mövzusu seçimi, hipotez qurulması və metod seçimi kimi mərhələlər öyrədilir. Tələbələr həm kəmiyyət, həm keyfiyyət metodlarının tətbiqini praktik olaraq sınayırlar. Məlumat toplama, emal və analiz prosesi seminarın əsas fəaliyyətlərini təşkil edir. Fən akademik yazı qaydaları və tədqiqat hesabatı hazırlama bacarıqları ilə tamamlanır. Seminar müddətində tələbələr real sosial problemlər üzərində işləyirlər. Kursun nəticəsi kimi tam strukturlu empirik tədqiqat layihəsi təqdim olunur.	6
	Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər	24
12	**a) Qlobal və lokal idarəetmə sistemlərinin müqayisəli analizi** Bu fənn müxtəlif ölkələrin idarəetmə modellərini nəzəri və praktik aspektdə müqayisə edir. Qlobal idarəetməyə təsir edən siyasi, iqtisadi və sosial faktorlar araşdırılır. Lokal idarəetmənin xüsusiyyətləri, onun tarixi və institusional çərçivəsi izah olunur. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin idarəetmə pratikaları müqayisə edilir. Qlobal tendensiyaların lokal idarəetməyə uyğunlaşdırılması məsələləri təhlil olunur. Fən müxtəlif regionlarda idarəetmə səmərəliliyinə təsir edən mədəni faktorları araşdırır. Tələbələr dünya idarəetmə sistemlərinin üstünlüklərini və çatışmazlıqlarını müəyyən etməyi öyrənirlər. **b) Korporativ mədəniyyət və korporativ dəyərlər** Fənn müasir təşkilatlarda korporativ mədəniyyətin mahiyyətini və onun formalaşma yollarını izah edir. Korporativ dəyərlər əməkdaşların davranış qaydalarını, münasibətlərini və motivasiyalarını müəyyənləşdirən əsas göstəricilərdir. Fənn təşkilat daxilində komanda ruhunun yaradılması və əməkdaşlığın gücləndirilməsi məsələlərinə diqqət yetirir. Korporativ mədəniyyətin güclü olması şirkətin səmərəliliyinə və rəqabət qabiliyyətinə təsir göstərir. Dəyərlərin düzgün formalaşması işçi-müştəri münasibətlərində də mühüm rol oynayır. Müxtəlif ölkələrin korporativ mədəniyyət modelləri müqayisəli şəkildə öyrənilir. Beləliklə, tələbələr müasir idarəetmədə korporativ dəyərlərin strateji əhəmiyyətini dərk edirlər.	6

13	**a) Makro və mikro səviyyədə təşkilat modelləri** Bu fənn təşkilatların həm makro, həm də mikro səviyyədə funksiyalarını təhlil edir. Makro səviyyədə təşkilatların cəmiyyətlə qarşılıqlı təsiri araşdırılır. Mikro səviyyədə isə işçi davranışı, qrup dinamikası və struktur elementləri izah olunur. Fənn müxtəlif təşkilat modellərini nəzəri istiqamətlərə uyğun təsnif edir. Təşkilatların dəyişmə və adaptasiya mexanizmləri təhlil olunur. Sosial sistem yanaşmaları və təşkilati mədəniyyət elementləri araşdırılır. Tələbələr təşkilatların çoxsəviyyəli analizini aparmaq bacarığı əldə edirlər. **b) İdarəetmədə proqram-layihə metodu** Fənn idarəetmədə proqram-layihə yanaşmasının nəzəri və praktik əsaslarını izah edir. Proqram-layihə metodu uzunmüddətli məqsədlərə nail olmaq üçün planlaşdırılmış kompleks tədbirlər sistemini əhatə edir. Bu metod sosial, iqtisadi və təşkilati proseslərin səmərəli idarə edilməsinə imkan yaradır. İdarəetmədə məqsədlərin dəqiq müəyyən olunması və resursların düzgün bölüşdürülməsi ön plana çəkilir. Layihələrin mərhələlərlə həyata keçirilməsi, monitorinq və qiymətləndirmə prosesləri öyrədilir. Fənn tələbələrə idarəetmədə strateji yanaşma və layihəçi düşüncə tərzi qazandırır. Beləliklə, proqram-layihə metodu idarəetmədə innovativ və planlı inkişafın təminatçısı kimi təqdim olunur.	6
14	**a) Müasir Azərbaycan mədəniyyəti** Müasir Azərbaycan mədəniyyəti fənni ölkənin XX əsrin sonu və XXI əsrdə formalaşmış mədəni-mənəvi mühitinin elmi-nəzəri əsaslarını, inkişaf dinamikasını və bu prosesin sənət sahələrinə təsir mexanizmlərini əhatə edir. Fənn müstəqillik dövründə cəmiyyətin siyasi, sosial və iqtisadi transformasiyalarının bədii yaradıcılıq sahələrinə, mədəni institutların fəaliyyətinə və milli mədəni identikliyin formalaşmasına necə təsir etdiyini sistemli şəkildə araşdırır. Tədris müddətində musiqi, təsviri sənət, monumental dekorativ sənət, teatr və kino kimi sahələrdə çağdaş tendensiyalar, yeni estetik axtarışlar, modern və postmodern ifadə formaları, eləcə də rəqəmsallaşma və qloballaşmanın sənətə gətirdiyi yeniliklər təhlil olunur. Fənn həmçinin Azərbaycanın müasir mədəniyyət siyasətini, dövlətin mədəniyyət qurumlarının fəaliyyət prinsiplərini və yaradıcı sənayelərin inkişaf istiqamətlərini araşdıraraq sənətşünaslıq ixtisası üzrə magistrantlarda analitik və tənqidi düşünmə bacarığını gücləndirir. **b) Mədəni antropologiya** Bu fənn insan cəmiyyətlərinin mədəni müxtəlifliyini, mədəni davranış nümunələrini, dəyərləri, inancları və sosial praktikaları elmi əsaslarla öyrənən bir sahədir. Fənn mədəniyyətin formalaşma proseslərini, onun tarixi inkişafını, strukturlarını və funksiyalarını izah etməklə yanaşı, mədəniyyətin sənətə, yaradıcılığa və estetik modellərə təsirini təhlil edir.	6
15	**a) Sosial sferanın idarəolunması** Fənn sosial sferada (təhsil, səhiyyə, mədəniyyət və s.) idarəetmə proseslərinin xüsusiyyətlərini öyrədir. Sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi və əhalinin ehtiyaclarının qarşılanması əsas mövzular	6

	sırasındadır. Sosial siyasətin həyata keçirilməsi, resursların bölüşdürülməsi və monitorinq məsələləri izah olunur. Fənn sosial tərəqqinin təmin edilməsində dövlət və qeyri-dövlət institutlarının rolunu açıqlayır. Sosial sferanın idarə olunmasında innovativ yanaşmalar və texnologiyalar da təhlil edilir. Sosial rifahın artırılması və sosial bərabərliyin təmin olunması xüsusi vurğulanır. Beləliklə, tələbələr sosial sferanın idarə edilməsinin nəzəri və praktik əsaslarını öyrənirlər. **b) İdarəetmə sosiologiyasında müasir nəzəri debatlar** Fənn idarəetmə sosiologiyasının müasir nəzəri istiqamətlərini və elmi mübahisələri təqdim edir. Təşkilat nəzəriyyələrində postmodern, neoinstitusional və kritiki yanaşmalar izah olunur. Qlobalizasiya, rəqəmsallaşma və əmək münasibətləri kimi mövzular aktual debatlarda təhlil edilir. Fənn təşkilatlarda güc, nəzarət və sosial dəyişmə proseslərinin yeni interpretasiyalarını öyrədir. Müasir idarəetmə modellərinin sosial təsirləri nəzəri kontekstdə müzakirə olunur. Tələbələr müxtəlif nəzəri mövqelərin üstünlükləri və məhdudiyyətlərini müqayisə edirlər. Kurs akademik diskussiyalara aktiv qoşulma və tənqidi düşünmə bacarığı formalaşdırır.	
Təcrübə		12
16	Elmi-pedaqoji təcrübə	6
17	Elmi tədqiqat təcrübəsi	6
Dissertasiya işi		
18	Magistrlik dissertasiyası	18
CƏMİ		**120**

4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

5. İnfrastruktur və kadr potensialı

5.1. Təhsil proqramlarının səmərəli həyata keçirilməsi üçün ali təhsil müəssisəsi aşağıdakı infrastruktura malik olmalıdır: ixtisaslaşmış tədris otaqları və tədqiqat laboratoriyaları, müasir kompüter sinifləri, stabil internet bağlantısı, statistik analiz proqramları (SPSS, STATA, R və s.), rəqəmsal elmi bazalara və elektron kitabxanalara çıxış imkanları, zəngin ixtisaslaşdırılmış kitabxana fondu, eləcə də empirik tədqiqatlar üçün sorğu və məlumat toplama alətləri. Kadr potensialı isə sosiologiya və sosial elmlər sahəsində ixtisaslaşmış professor-müəllim heyətindən, müasir tədqiqat metodlarına bələd olan, elmi fəaliyyətlə fəal məşğul olan gənc tədqiqatçılardan, xaricdə təhsil almış mütəxəssislərdən və həmçinin praktik idarəetmə təcrübəsinə malik dövlət və ictimai sektor nümayəndələrindən ibarət olmalıdır.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

6. Karyera imkanları və ömürboyu təhsil

6.1. 7002015 - Sosiologiya ixtisasının ixtisaslaşmaları üzrə məzunlar aşağıdakı sahələrdə və peşələrdə işləmək imkanı əldə edirlər:
Sosiologiya ixtisası üzrə ixtisaslaşmış məzunlar dövlət qurumlarında siyasi ekspert, qanunvericilik üzrə məsləhətçi, idarəetmə mütəxəssisi, proqram meneceri, tədqiqatçı və analitik kimi, ali məktəblərdə müəllim və elmi işçi, beyin mərkəzlərində və sosial tədqiqat institutlarında isə araşdırmaçı kimi fəaliyyət göstərə bilərlər. Onlar sosial siyasət, idarəetmə, əhali, təhsil, səhiyyə, miqrasiya və urbanizasiya sahələrində tədqiqatlar apararaq qərarverici orqanlara sübutlara əsaslanan məlumatlar təqdim edə bilirlər. Media, vətəndaş cəmiyyəti, karyera mərkəzləri və özəl sektor da bu ixtisas üzrə məzunlar üçün real karyera sahələridir. Ömürboyu təhsil bu imkanları genişləndirir: rəqəmsal və analitik bacarıqların artırılması, peşəkar sertifikat proqramları, təlim və staj imkanları məzunların əmək bazarında rəqabətqabiliyyətini gücləndirir və onların müxtəlif sahələrə uyğunlaşmasını təmin edir.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

Əlavə 1

Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

İdarəetmənin sosiologiyası ixtisaslaşması üzrə

Proqramın təlim nəticələri (PTN)
PTN 1 - Sosial strukturlar və idarəetmə sistemlərinin nəzəri təməlini mənimsəyəcək.
PTN 2 - Makro/mikro səviyyədə təşkilat və idarəetmə modellərini analiz edə biləcək.
PTN 3 - Kəmiyyət (statistika, survey) və keyfiyyət (intervü, fokus qrup) metodlarla sorğu qura, həyata keçirə və nəticələrini emal edə biləcək.
PTN 4 - İdarəetmənin sosial və mədəni strukturunu analiz edib tənqidi yanaşma formalaşdıracaq.
PTN 5 - Elmi etika prinsiplərinə əsaslanaraq, idarəetmədə şəxsi və ictimai məlumatların təhlükəsizliyini təmin edəcək.
PTN 6 - Qlobal və lokal çərçivədə idarəetmə sistemlərinin fərqini anlayacaq və nəzərdən keçirəcək.

Tədqiqat metodları fənni üzrə təlim nəticələri (FTN)
FTN 1 - Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək.
FTN 2 - Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək.
FTN 3 - Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq.
FTN 4 - Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək.
FTN 5 - Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq.
FTN 6 - Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq edə biləcək.

Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN)
FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək.
FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq.

FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq.
FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq.
FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək.
FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq.

Tədqiqat analitikası fənni üzrə təlim nəticələri (FTN)
FTN 1 - Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq.
FTN 2 - Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək.
FTN 3 - Fərqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq.
FTN 4 - Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək.
FTN 5 - Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək.
FTN 6 - Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək.

Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN)
FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək.
FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək.
FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq.
FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək.
FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq.
FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək.

Sosioloji tədqiqat metodologiyası (keyfiyyət metodlar: intervü, fokus qrup) fənni üzrə təlim nəticələri (FTN)
FTN 1. Sosioloji tədqiqatlar haqqında müəyyən nəzəri elmi biliklərə malik olacaq.
FTN 2. Müxtəlif sosial-siyasi və idarəetmə proseslərinin sosial səbəblərini sosiologiya elminin metodologiyasına uyğun olaraq təhlil etməyi bacaracaq.
FTN 3 . Problemlərin sosioloji təhlilində kəmiyyət və keyfiyyət metodlarından və onların tətbiqi yollarından istifadə etməyi bacaracaq.
FTN 4.Gələcəkdə müxtəlif sosial fənnləri və onlar arasındakı əlaqələri daha dərindən mənimsəmək üçün praktiki-nəzəri vərdiş əldə edəcək.
FTN 5. Tədqiqat üçün müsahib seçmə, sual formalaşdırma, məlumat toplama və təhlil bacarığına yiyələnəcək.
FTN 6. Keyfiyyət tədqiqat metodlarından istifadə edərək elmi praktik hesabat və təqdimat hazırlamağı bacaracaq.

İdarəetmənin nəzəri əsasları və sosial strukturlar fənni üzrə təlim nəticələri (FTN)
FTN 1. İdarəetmənin mahiyyəti və məzmunu haqqında yeni elmi-nəzəri biliklərə malik olacaq.
FTN 2. Sosial proseslər, institutlar, hadisələr, sosial birliklər, ictimai davranış və şüurun öyrənilməsi sahəsində layihələrin hazırlanması və həyata keçirilməsində informasiya toplama texnologiyalarını tətbiq etməyi bacaracaq.
FTN 3. İdarəetmə sosiologiyası predmeti çərçivəsində ictimai həyatın sosial, mədəni, iqtisadi və siyasi sferasında problemli vəziyyəti təsvir və təhlil etməyi bacaracaq.
FTN 4. İdarəetmə sosiologiyası sahəsində aktual sosial problemlərin öyrənilməsi üçün sosioloji biliklərdən və sosioloji tədqiqat metodlarından istifadə etməyi bacaracaq.
FTN 5. Modifikasiya olunmuş və yeni metodların sosial sferada tətbiqini həyata keçirəcək.
FTN 6. İdarəetmədə kommunikasiya və təşkilati mədəniyyətin idarə olunması texnologiyalarını tətbiq etməyi bacaracaq.
FTN 7. Sosial hadisə və proseslərin izahında əsas sosioloji və digər elmi konsepsiyaları tənqidi şəkildə tətbiq edəcək.

İdarəetmədə sosial siyasət və mədəniyyət faktorları fənni üzrə təlim nəticələri (FTN)
FTN 1: Sosial siyasət anlayışı, məqsədləri, funksiyaları və idarəetmədə rolu haqqında sistemli bilik əldə edəcəklər.
FTN 2: Mədəniyyət faktorlarının idarəetməyə təsir mexanizmlərini izah edə biləcəklər.
FTN 3: Sosial siyasət modellərini (liberal, sosial-demokratik, korporativ və s.) müqayisəli şəkildə öyrənəcəklər.
FTN 4: Qloballaşma, modernləşmə və milli kimlik münasibətlərini nəzəri və praktik aspektlərdə anlayacaqlar.
FTN 5: Azərbaycan Respublikasında sosial siyasət və mədəniyyət sahəsində həyata keçirilən dövlət proqramları və qanunvericilik bazası ilə tanış olacaqlar.

FTN 6: Sosial siyasət anlayışı, məqsədləri, funksiyaları və idarəetmədə rolu haqqında sistemli bilik əldə edəcəklər.
FTN 7: Mədəniyyət faktorlarının idarəetməyə təsir mexanizmlərini izah edə biləcəklər.

Elmi etika və məlumat təhlükəsizliyi fənni üzrə təlim nəticələri (FTN)
FTN 1: Elmi fəaliyyətin etik prinsiplərini və tədqiqatçının peşəkar məsuliyyətini izah edə biləcəklər.
FTN 2: Plagiat, təhrif və saxtalaşdırma kimi etik pozuntuları tanıyacaq və onların qarşısının alınması yollarını tətbiq edə biləcəklər.
FTN 3: Məlumat təhlükəsizliyinin əsas prinsiplərini, şəxsi və həssas məlumatların qorunması qaydalarını şərh edə biləcəklər.
FTN 4: Tədqiqat prosesində məxfilik, məlumatlı razılıq və etik komitələrin rolu barədə praktiki bilikləri tətbiq edəcəklər.
FTN 5: Rəqəmsal mühitdə məlumat idarəçiliyinin risklərini müəyyən edəcək və təhlükəsizlik strategiyaları hazırlaya biləcəklər.
FTN 6: Elmi işdə şəffaflıq, dəqiqlik və məsuliyyətli tədqiqat aparmanın əhəmiyyətini qiymətləndirə biləcəklər.
FTN 7: Etika və məlumat təhlükəsizliyinin uzunmüddətli elmi inkişaf və ictimai etimad üçün rolunu analitik şəkildə dəyərləndirə biləcəklər.

Kəmiyyət metodlar (statistika və survey tədqiqatları) fənni üzrə təlim nəticələri (FTN)
FTN 1: Statistikanın əsas anlayışlarını və onların sosioloji tədqiqatlarda tətbiqini izah edə biləcəklər.
FTN 2: Anket (survey) tədqiqatlarının dizaynı, hazırlanması və həyata keçirilməsi prosesini planlaşdırıb tətbiq edə biləcəklər.
FTN 3: Toplanmış məlumatları kodlaşdırmaq, təmizləmək, analiz etmək və interpretasiya etmək bacarıqlarına yiyələnəcəklər.
FTN 4: Ehtimal nəzəriyyəsi və nümunə götürmə metodlarını izah edəcək və real tədqiqatlarda tətbiq edə biləcəklər.
FTN 5: Statistik proqram təminatından (SPSS, R, Stata və s.) istifadə edərək kəmiyyət data analizi aparmaq bacarığı qazanacaqlar.
FTN 6: Kəmiyyət tədqiqat nəticələrinin etibarlılıq və legitimlik meyarlarını qiymətləndirə biləcəklər.
FTN 7: Kəmiyyət nəticələrin sosial reallığın izahında rolu və məhdudiyyətlərini analitik şəkildə dəyərləndirə biləcəklər.

Sosial və mədəni sistemlərin analizi fənni üzrə təlim nəticələri (FTN)
FTN 1: Sosial və mədəni sistemlərin quruluşunu, elementlərini və qarşılıqlı əlaqələrini izah edə biləcəklər.

FTN 2: Sosial institutların, normların və dəyərlərin cəmiyyətdəki funksiyalarını təhlil edəcəklər.
FTN 3: Mədəni müxtəliflik, sosial dəyişmə və modernləşmə proseslərini analitik şəkildə qiymətləndirə biləcəklər.
FTN 4: Struktur-funksional və interpretativ nəzəri yanaşmaları tətbiq edərək sosial və mədəni sistemləri şərh etməyi bacaracaqlar.
FTN 5: Sosial qrupların, identiklik formalarının və mədəni şəbəkələrin işləmə mexanizmlərini izah edəcəklər.
FTN 6: Cəmiyyətin təhlilində sistem yanaşmasının əhəmiyyətini və tətbiq imkanlarını dərk edəcəklər.
FTN 7: Sosial problemləri sistemli şəkildə təhlil etmək və mümkün həll strategiyaları formalaşdırmaq bacarıqlarına yiyələnəcəklər.

Tədqiqat seminarı (empirik layihə hazırlığı) fənni üzrə təlim nəticələri (FTN)
FTN 1: Empirik tədqiqat aparmaq üçün tədqiqat mövzusu seçməyi, problem formalaşdırmağı və hipotez qurmağı bacaracaq.
FTN 2: Tədqiqat məqsədinə uyğun kəmiyyət və keyfiyyət metodlarını seçmək və əsaslandırmaq qabiliyyəti əldə edəcək.
FTN 3: Məlumat toplama prosesini (anket, intervü, müşahidə və s.) planlaşdırmaq və həyata keçirmək bacarığına yiyələnəcəklər.
FTN 4: Toplanmış məlumatı emal etmək, kodlaşdırmaq, analiz etmək və interpretasiya etmək bacarığını nümayiş etdirəcəklər.
FTN 5: Empirik tədqiqat layihəsinin strukturunu (giriş, nəzəri çərçivə, metodologiya, nəticələr, müzakirə) düzgün şəkildə qurub tətbiq edə biləcəklər.
FTN 6: Akademik yazı standartlarına uyğun tədqiqat hesabatı və elmi mətn hazırlamaq bacarığı qazanacaqlar.
FTN 7: Real sosial problemləri empirik yanaşma ilə təhlil etmək, nəticələr çıxarmaq və əsaslandırılmış tövsiyələr vermək qabiliyyətinə sahib olacaqlar.

Qlobal və lokal idarəetmə sistemlərinin müqayisəli analizi fənni üzrə təlim nəticələri (FTN)
FTN 1: Müxtəlif ölkələrin idarəetmə modellərini nəzəri və praktik aspektdən müqayisə etməyi bacaracaqlar.
FTN 2: Qlobal idarəetməyə təsir edən siyasi, iqtisadi və sosial faktorları təhlil edə biləcəklər.
FTN 3: Lokal idarəetmənin tarixi inkişafını, institusional quruluşunu və funksional xüsusiyyətlərini izah edəcəklər.
FTN 4: İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin idarəetmə təcrübələrini və modellərini analitik şəkildə müqayisə edəcəklər.
FTN 5: Qlobal tendensiyaların lokal idarəetmə sistemlərinə uyğunlaşdırılması imkanlarını və çətinliklərini dəyərləndirə biləcəklər.
FTN 6: Müxtəlif regionlarda idarəetmə səmərəliliyinə təsir edən mədəni və sosial faktorları təhlil edəcəklər.

FTN 7: Dünya idarəetmə sistemlərinin üstünlüklərini, zəifliklərini və tətbiq potensialını müəyyən edib əsaslandırılmış nəticələr çıxara biləcəklər.

Korporativ mədəniyyət və korporativ dəyərlər fənni üzrə təlim nəticələri (FTN)
FTN 1: Korporativ mədəniyyətin anlayışını və strukturunu izah edəcək.
FTN 2: Korporativ dəyərlərin təşkilat üçün rolunu təhlil edəcək.
FTN 3: Korporativ identiklik və davranış modellərini mənimsəyəcək.
FTN 4: Korporativ mədəniyyətin inkişaf yollarını müəyyənləşdirəcək.
FTN 5: Korporativ dəyərlərin işçi münasibətlərinə təsirini təhlil edəcək.
FTN 6: Təşkilatlarda korporativ mühitin gücləndirilməsi yollarını göstərəcək.
FTN 7: Korporativ mədəniyyətin formalaşdırılmasında sosial texnologiyaları tətbiq edəcək.

Makro və mikro səviyyədə təşkilat modelləri fənni üzrə təlim nəticələri (FTN)
FTN 1. Təşkilatların makro və mikro səviyyədə funksiyalarını və qarşılıqlı təsir mexanizmlərini izah edə biləcəklər.
FTN 2. Makro səviyyədə təşkilatların cəmiyyətlə əlaqələrini, institusional təsirləri və sosial mühitdəki rolunu təhlil edəcəklər.
FTN 3. Mikro səviyyədə işçi davranışı, qrup dinamikası və təşkilati struktur elementlərini şərh edə biləcəklər.
FTN 4. Müxtəlif təşkilat modellərini nəzəri istiqamətlərə uyğun olaraq təsnif etmək və müqayisə etmək bacarığı əldə edəcəklər.
FTN 5. Təşkilatların dəyişmə, transformasiya və adaptasiya mexanizmlərini analitik şəkildə qiymətləndirə biləcəklər.
FTN 6. Sosial sistem yanaşmalarını və təşkilati mədəniyyətin əsas elementlərini təhlil edib tətbiq edə biləcəklər.
FTN 7. Təşkilatların çoxsəviyyəli analizini aparmaq, onların strukturu və davranışını birgə dəyərləndirmək bacarığına yiyələnəcəklər.

İdarəetmədə proqram-layihə metodu fənni üzrə təlim nəticələri (FTN)
FTN 1: Proqram-layihə metodunun mahiyyətini və xüsusiyyətlərini izah edəcək.
FTN 2: İdarəetmədə proqram və layihələrin qarşılıqlı əlaqəsini təhlil edəcək.
FTN 3: Layihələrin planlaşdırılması və həyata keçirilmə mərhələlərini mənimsəyəcək.
FTN 4: Proqram-layihə metodunun üstünlüklərini və məhdudiyyətlərini müəyyənləşdirəcək.
FTN 5: İdarəetmədə proqram-layihə yanaşmasını tətbiq edə biləcək.
FTN 6: Layihələrin sosioloji aspektlərini təhlil edəcək.
FTN 7: Proqram-layihə metodunu müasir idarəetmə proseslərində tətbiq edəcək.

Müasir Azərbaycan mədəniyyəti fənni üzrə təlim nəticələri (FTN)
FTN 1. Müasir Azərbaycan mədəniyyətinin nəzəri əsaslarını, inkişaf mərhələlərini, mədəni prosesləri müəyyənləşdirən sosial, siyasi və estetik amilləri elmi baxımdan izah etməyi bacaracaq.
FTN 2. XX əsrin sonu və XXI əsr Azərbaycan mədəniyyətində formalaşan əsas istiqamətləri və meyilləri, yeni bədii-estetik axtarışları və sənət növlərində baş verən transformasiyaları sistemli şəkildə təhlil edəcək.
FTN 3. Müasir dövrdə təsviri sənət, musiqi, teatr, kino və digər sənət sahələrində baş verən yenilənmələri, aparıcı yaradıcı şəxslərin yaradıcılıq xəttini və onların mədəniyyətə təsirini qiymətləndirmə bacarığı əldə edəcək.
FTN 4. Mədəniyyət siyasətinin mühüm istiqamətlərini, dövlət və qeyri-dövlət mədəniyyət institutlarının fəaliyyət modelini və bu institutların müasir incəsənətə təsir mexanizmlərini aydın şəkildə izah edəcək.
FTN 5. Qloballaşma, rəqəmsallaşma, informasiya texnologiyalarının inkişafı kimi amillərin Azərbaycanın mədəni və bədii mühitinə təsirini elmi-metodoloji yanaşmalarla araşdırır və qiymətləndirəcək.
FTN 6. Müasir Azərbaycan mədəniyyətində milli identiklik, modernlik və postmodernlik kimi anlayışların sənət proseslərində təzahür formalarını müqayisəli şəkildə təhlil edəcək.

Mədəni antropologiya fənni üzrə təlim nəticələri (FTN)
FTN 1. Mədəni antropologiyanın əsas anlayışlarını, nəzəri məktəblərini və yanaşmalarını dərindən izah edə bilir, onların sənətşünaslıqda tətbiq imkanlarını əsaslandıra biləcək.
FTN 2. Mədəniyyətin strukturu, funksiyası və inkişaf qanunauyğunluqlarını təhlil edə biləcək və bu bilikləri sənət nümunələrinin mənşəyinin, məzmununun və estetik xüsusiyyətlərinin araşdırılmasına tətbiq edə biləcək.
FTN 3. Mədəni müxtəlifliyi, sosial norma və dəyərləri müqayisəli şəkildə qiymətləndirib, müxtəlif cəmiyyətlərdə sənət və yaradıcılığın mədəni kontekstlərini müəyyənləşdirə biləcək.
FTN 4. Mədəni antropologiyanın sahə tədqiqatı metodlarını və etnoqrafik yanaşmaları tətbiq etmə bacarığına malik olub, toplanmış məlumatları elmi əsaslarla təhlil edib sənətşünaslıq tədqiqatlarına inteqrasiya edə biləcək.
FTN 5. Qloballaşma, mədəni dəyişmə və sosial transformasiyaların incəsənətə təsirini qiymətləndirib, müasir və ənənəvi sənət nümunələrində mədəni proseslərin izlərini müəyyənləşdirəcək.

İdarəetmə sosiologiyasında müasir nəzəri debatlar fənni üzrə təlim nəticələri (FTN)
FTN 1: İdarəetmə sosiologiyasının müasir nəzəri istiqamətlərini və elmi debatların əsas mövzularını izah edə biləcəklər.
FTN 2: Təşkilat nəzəriyyələrində postmodern, neoinstitusional və kritiki yanaşmaların əsas prinsiplərini təhlil edəcəklər.
FTN 3: Qlobalizasiya, rəqəmsallaşma və əmək münasibətlərinin idarəetmə strukturlarına təsirini müasir nəzəri kontekstdə qiymətləndirə biləcəklər.

FTN 4: Təşkilatlarda güc münasibətləri, nəzarət mexanizmləri və sosial dəyişmə prosesləri haqqında yeni nəzəri interpretasiyaları şərh edəcəklər.
FTN 5: Müasir idarəetmə modellərinin sosial təsirlərini, nəticələrini və məhdudiyyətlərini analitik şəkildə dəyərləndirəcəklər.
FTN 6: Müxtəlif nəzəri mövqeləri müqayisə etmək, onların üstünlüklərini və çatışmazlıqlarını müəyyən etmək bacarığı qazanacaqlar.
FTN 7: Akademik diskussiyalarda aktiv iştirak edərək tənqidi düşünmə, arqument qurma və nəzəri nəticələr çıxarma bacarığını inkişaf etdirəcəklər.

Sosial sferanın idarəolunması fənni üzrə təlim nəticələri (FTN)
FTN 1: Sosial sferanın anlayışını və strukturunu izah edəcək.
FTN 2: Sosial sferanın idarə olunma mexanizmlərini təhlil edəcək.
FTN 3: Sosial siyasətin əsas istiqamətlərini müəyyənləşdirəcək.
FTN 4: Sosial xidmətlərin idarə olunması yollarını mənimsəyəcək.
FTN 5: Sosial sferada idarəetmənin effektivliyini qiymətləndirəcək.
FTN 6: Sosial sferanın idarəsində müasir metodları tətbiq edəcək.
FTN 7: Sosial sferanın idarəsində sosioloji araşdırmalardan istifadə edəcək.

Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN)
FTN 1 - İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq.
FTN 2 - Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək.
FTN 3 - Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək.
FTN 4 - Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək.
FTN 5 - Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq.
FTN 6 - Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək

Elmi tədqiqat təcrübəsi üzrə təlim nəticələri (FTN)
FTN 1 - İxtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd ve vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq.
FTN 2 - Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi,

əməliyyat-taktiki təhiil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək.
FTN 3 - Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək.
FTN 4 – Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq.
FTN 5 - Tədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək.
FTN 6 - Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək.

Magistrlik dissertasiyası üzrə təlim nəticələri (FTN)
FTN 1 - Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək.
FTN 2 - İxtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək.
FTN 3 - Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə sərişdə qazanacaq.
FTN 4 – Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək.
FTN 5 - Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək.
FTN 6 - Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fealiyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək.

Əlavə 2

Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

Tədris fəaliyyətinin (fənnin) adı	Proqramın təlim nəticələri					
	PTN 1	PTN 2	PTN 3	PTN 4	PTN 5	PTN 6
Tədqiqat metodları			x			
Akademik yazı və etika					x	
Tədqiqat analitikası			x			
Ali məktəb pedaqogikası və psixologiya				x		
Sosioloji tədqiqat metodologiyası (keyfiyyət metodlar: intervü, fokus qrup)	x		x			
İdarəetmənin nəzəri əsasları və sosial strukturlar		x	x			
İdarəetmədə sosial siyasət və mədəniyyət faktorları		x		x		
Elmi etika və məlumat təhlükəsizliyi			x		x	
Kəmiyyət metodlar (statistika və survey tədqiqatları)	x	x				x
Sosial və mədəni sistemlərin analizi				x		x
Tədqiqat seminarı (empirik layihə hazırlığı)	x				x	
Qlobal və lokal idarəetmə sistemlərinin müqayisəli analizi		x		x		
Korporativ mədəniyyət və korporativ dəyərlər		x		x		
Makro və mikro səviyyədə təşkilat modelləri		x				x
İdarəetmədə proqram-layihə metodu			x		x	
Müasir Azərbaycan mədəniyyəti				x		x

Mədəni antropologiya	x					x
İdarəetmə sosiologiyasında müasir nəzəri debatlar		x		x		
Sosial sferanın idarəolunması		x				x
Elmi-pedaqoji təcrübə					x	
Elmi tədqiqat təcrübəsi						x
Magistrlik dissertasiyası						x

Razılaşdırıldı:

ADMİU-nun Tədris işləri üzrə prorektoru: _____ **Nigar Rüstəmova**

ADMİU-nun Tədris şöbəsinin müdiri: _____ **Namiq Qafarov**

ADMİU-nun Sosial-siyasi elmlər kafedrasının müdiri: _____ **Əfşan Şəfiyeva**

ADMİU-nun Kulturologiya fakültəsinin dekanı: _____ **Səyavuş Məhişov**